| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 11.08.2022 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 296 |
| **ADI** | “Şuşa şəhərinin ərazisində yerləşən abidələrə təhlükə yaradan işlərin məhdudlaşdırılması və ya dayandırılması ilə bağlı yazılı göstərişlərin məzmunu, habelə təhlükənin aradan qaldırılması tədbirləri, onların həyata keçirilməsi Qaydası və müddəti”nin təsdiq edilməsi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı (Dərc olunma tarixi: 11.08.2022), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31.08.2022, Nəşr nömrəsi: 8, Maddə nömrəsi: 984) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 11.08.2022 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 210.010.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 14202208110296 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 15.08.2022 |

**“Şuşa şəhərinin ərazisində yerləşən abidələrə təhlükə yaradan işlərin məhdudlaşdırılması və ya dayandırılması ilə bağlı yazılı göstərişlərin məzmunu, habelə təhlükənin aradan qaldırılması tədbirləri, onların həyata keçirilməsi Qaydası və müddəti”nin təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında” Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 338-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1374 nömrəli Fərmanının 2.1.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Şuşa şəhərinin ərazisində yerləşən abidələrə təhlükə yaradan işlərin məhdudlaşdırılması və ya dayandırılması ilə bağlı yazılı göstərişlərin məzmunu, habelə təhlükənin aradan qaldırılması tədbirləri, onların həyata keçirilməsi Qaydası və müddəti” təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 11 avqust 2022-ci il
296

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2022-ci il 11 avqust tarixli 296 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Şuşa şəhərinin ərazisində yerləşən abidələrə təhlükə yaradan işlərin məhdudlaşdırılması və ya dayandırılması ilə bağlı yazılı göstərişlərin məzmunu, habelə təhlükənin aradan qaldırılması tədbirləri, onların həyata keçirilməsi Qaydası və müddəti**

**1. Ümumi müddəalar**

1.1. Bu Sənəd “Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında” Azərbaycan Respublikası Qanununun 5.3-cü maddəsinə əsasən hazırlanmışdır və Şuşa şəhərinin ərazisində yerləşən tarix və mədəniyyət abidələrinə (bundan sonra – abidə) təhlükə yaradan işlərin məhdudlaşdırılması və ya dayandırılması ilə bağlı yazılı göstərişlərin məzmununu, habelə təhlükənin aradan qaldırılması tədbirlərini, onların həyata keçirilməsi qaydasını və müddətini müəyyən edir.

1.2. Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi (bundan sonra - İdarə) “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikası Qanununun, habelə abidələrin qorunması sahəsində Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarının tələblərinə uyğun olaraq, Şuşa şəhəri Dövlət Qoruğunun ərazisində yerləşən abidələrə təhlükə yaradan işlərin yerinə yetirildiyini aşkar etdikdə, həmin işlərin sifarişçisi olan, sifarişçini müəyyən etmək mümkün olmadıqda isə həmin işləri bilavasitə yerinə yetirən vəzifəli şəxslərə, fiziki və hüquqi şəxslərə bu Sənədə 1 nömrəli əlavədə nəzərdə tutulmuş formada Şuşa şəhərinin ərazisində yerləşən abidələrə təhlükə yaradan işlərin məhdudlaşdırılması və ya dayandırılması ilə bağlı icrası məcburi olan yazılı göstərişlər (bundan sonra - Göstəriş) verir.

**2. Göstərişlərin məzmunu, təhlükənin aradan qaldırılması tədbirləri, onların həyata keçirilməsi qaydası və müddəti**

2.1. Göstəriş abidələrə təhlükə yaradan işlər nəticəsində müdaxiləyə məruz qalmış abidəyə baxış keçirilən zaman aşkar olunmuş müdaxilə faktının rəsmiləşdirildiyi, bu Sənədə 2 nömrəli əlavədə nəzərdə tutulmuş formada tərtib edilmiş “Müdaxiləyə məruz qalmış abidənin texniki vəziyyəti haqqında akt” əsasında İdarə tərəfindən verilir. Aktda abidəyə baxış keçirilən zaman aşkar olunmuş hər bir müdaxilə faktı ayrıca təsvir olunur.

2.2. Göstərişdə yerinə yetirilən işlərin abidələrə yaratdığı təhlükənin mahiyyəti də daxil olmaqla aşağıdakılar göstərilir:

2.2.1. Göstərişi vermiş dövlət orqanının (qurumunun) adı;

2.2.2. Göstərişin yazılma tarixi və yeri, qeydiyyat nömrəsi;

2.2.3. barəsində Göstəriş verilmiş şəxsə dair məlumat (vəzifəli şəxsin adı, soyadı, atasının adı, vəzifəsi, hüquqi şəxsin tam adı, hüquqi ünvanı, fiziki şəxsin adı, soyadı, atasının adı, şəxsiyyətini təsdiq edən sənədin seriya və nömrəsi, qeydiyyat ünvanı (müəyyən etmək mümkün olduqda);

2.2.4. barəsində Göstəriş verilmiş şəxsin yerinə yetirdiyi işlərlə təhlükə yaratdığı abidəyə aidiyyəti (mülkiyyətçisi, icarəçisi, istifadəçisi, yerinə yetirdiyi işlərin sifarişçisi və ya podratçısı);

2.2.5. tələbləri pozulmuş normativ hüquqi aktların konkret struktur elementləri qeyd olunmaqla, aşkar edilmiş pozuntunun izahı, abidəyə edilmiş müdaxilə faktının təsviri və abidəyə yaradılan təhlükənin mahiyyəti;

2.2.6. bu Sənədin 2.1-ci bəndində nəzərdə tutulan akt barədə məlumat;

2.2.7. yerinə yetirilən işlərlə təhlükəyə məruz qalmış və ya məruz qalacaq abidələrin sayı, növü, ünvanı, sahibi barədə məlumat;

2.2.8. tətbiq edilən məhdudlaşdırıcı tədbir (tədbirlər), o cümlədən bu Sənədin 3-cü və 4-cü hissələrinə uyğun olaraq abidəyə təhlükə yaradan işlərin məhdudlaşdırılması və ya dayandırılması;

2.2.9. barəsində Göstəriş verilmiş şəxs tərəfindən təhlükənin aradan qaldırılması üçün yerinə yetirilməli tədbirlər,

həmin tədbirlərin icra müddəti, dərhal yerinə yetirilməli təxirəsalınmaz tədbirlər;

2.2.10. Göstərişdən şikayət verilməsi qaydası və şikayətin verilməsi müddəti;

2.2.11. Göstərişi vermiş vəzifəli şəxsin soyadı, adı, atasının adı, vəzifəsi və imzası;

2.2.12. Göstərişi vermiş dövlət orqanının (qurumunun) möhürü.

2.3. Göstəriş abidəyə müdaxilə faktı aşkarlandığı tarixdən 3 (üç) iş günü ərzində verilməlidir.

2.4. Göstəriş 2 (iki) nüsxədə tərtib edilir, 1 (bir) nüsxəsi İdarədə saxlanılır, digər nüsxəsi Göstərişin verildiyi tarixin növbəti iş günündən gec olmayaraq barəsində Göstəriş verilmiş şəxsə və ya onun səlahiyyətli nümayəndəsinə göndərilir.

2.5. Barəsində Göstəriş verilmiş şəxs Göstərişlə razılaşmadıqda, "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq inzibati qaydada və məhkəməyə şikayət verə bilər.

2.6. Abidələrə təhlükə yaradan işlərin dayandırıldığı hallarda yalnız Göstərişdə müəyyən edilən təhlükənin aradan qaldırılması tədbirləri ilə bağlı işlərin yerinə yetirməsinə yol verilir.

2.7. Barəsində Göstəriş verilmiş şəxs Göstərişdə nəzərdə tutulmuş tədbirləri yerinə yetirməli, abidələrə təhlükə yaradan işlərin məhdudlaşdırılmasına və ya dayandırlmasına əsas olmuş pozuntuları aradan qaldırmalı və bu barədə İdarəyə yazılı məlumat təqdim etməlidir.

2.8. İdarə bu Sənədin 2.7-ci bəndində nəzərdə tutulmuş məlumatın təqdim edildiyi gündən 2 (iki) iş günü müddətində barəsində Göstəriş verilmiş şəxsin iştirakı ilə pozuntuların aradan qaldırılıb-qaldırılmadığını yoxlamalıdır.

2.9. Bu Sənədin 2.8-ci bəndində nəzərdə tutulmuş yoxlama nəticəsində Göstərişdə nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilmədiyini və abidələrə təhlükə yaradan işlərin məhdudlaşdırılmasına və ya dayandırllmasına əsas olmuş pozuntuların aradan qaldırılmadığını müəyyən etdikdə, İdarə bu barədə barəsində Göstəriş verilmiş şəxsi yazılı məlumatlandırmaqla Göstərişdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin edir və çəkilmiş xərclərin, habelə dəymiş zərərin əvəzinin ödənilməsini həmin şəxsdən tələb edir.

2.10. Bu Sənədin 2.7-ci bəndində nəzərdə tutulmuş məlumatın təqdim edildiyi gündən 5 (beş) iş günü müddətində İdarə bu Sənədin 2.8-ci bəndində nəzərdə tutulan yoxlama zamanı pozuntuların aradan qaldırıldığını müəyyən etdikdə, Göstəriş qüvvədən düşmüş hesab olunur.

### 3. Abidələrə təhlükə yaradan işlərin məhdudlaşdırılmasına əsas verən hallar

3.1. Abidələrin yerləşdiyi ərazidə və mühafizə zonasında onlar üçün təhlükə yaradan aşağıdakı hallar aşkar edildikdə, İdarə tərəfindən işlərin məhdudlaşdırılması ilə bağlı qərar qəbul edilir:

3.1.1. abidələrin yerləşdiyi ərazidə və onların mühafizə zonalarında nəqliyyat vasitələrinin hərəkəti abidələr üçün təhlükə yaratdıqda;

3.1.2. abidələr üçün təhlükə yarada biləcək tikinti və mühəndis-kommunikasiya təminatı sistemində və (və ya) xətlərində təmir-tikinti işləri zamanı abidələrin təhlükəsizliyini təmin etmək üçün qabaqlayıcı tədbirlər görülmədikdə;

3.1.3. texniki avadanlıq, qurğu, cihaz və sair abidələrin təhlükəsiz istismarına mane olduqda.

### 4. Abidələrə təhlükə yaradan işlərin dayandırılmasına əsas verən hallar

4.1. Abidələrin yerləşdiyi ərazidə və mühafizə zonasında aşağıdakı hallar aşkar edildikdə, İdarə tərəfindən işlərin dayandırılması ilə bağlı qərar qəbul edilir:

4.1.1. tikinti və ya təsərrüfat işləri zamanı mədəni irs obyektlərinin əlamətləri aşkar edildikdə;

4.1.2. abidələrin üzərində bərpa, konservasiya, təmir, rekonstruksiya, regenerasiya və digər işlər onların layihələri dövlət mülkiyyətində olan abidələrə münasibətdə İdarənin qərarı, dövlət mülkiyyətində olmayan abidələrə münasibətdə isə İdarənin razılığı olmadan aparıldıqda;

4.1.3. abidələrin tarixi-memarlıq və bədii-estetik görkəmi dəyişdirildikdə, uçurulduqda və onlar üçün təhlükə yarada biləcək təmir, inşaat, təsərrüfat işləri aparıldıqda, habelə digər hər hansı fəaliyyət həyata keçirildikdə;

4.1.4. müvafiq icazə və mütəxəssis nəzarəti olmadan yerli əhəmiyyətli abidələrin köçürülməsi və yerinin dəyişdirilməsi aşkar edildikdə;

4.1.5. inşaat və abadlıq işləri aparılarkən abidələrin konfiqurasiyasının, ənənəvi küçə şəbəkələrinin dəyişdirildiyi aşkar edildikdə;

4.1.6. İdarənin razılığı olmadan abidələrin öyrənilməsinə və arxeoloji qazıntılar aparılmasına dair işlər görüldükdə.

"Şuşa şəhərinin ərazisində yerləşən abidələrə təhlükə
yaradan işlərin məhdudlaşdırılması və ya
dayandırılması ilə bağlı yazılı göstərişlərin məzmunu,
habelə təhlükənin aradan qaldırılması tədbirləri,
onların həyata keçirilməsi Qaydası və müddəti"nə

**1 nömrəli əlavə**

**Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi**

**Şuşa şəhərinin ərazisində yerləşən abidələrə təhlükə yaradan işlərin məhdudlaşdırılması və ya dayandırılması haqqında**

**GÖSTƏRİŞ _____**

**Şuşa şəhəri** **"_____" __________ 20__ il**

Mən, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin vəzifəli şəxsi ______________________________
(soyadı, adı, atasının adı, vəzifəsi)

__________________________________________________________________________məxsus
(mülkiyyətçi, icarəçi və ya istifadəçinin adı, ünvanı)

Şuşa şəhərində yerləşən__________________________________________________________
(abidənin adı, yerləşdiyi ünvan)

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq abidələrə nəzarəti həyata keçirərkən, "Şuşa şəhərinin ərazisində yerləşən abidələrə təhlükə yaradan işlərin məhdudlaşdırılması və ya dayandırılması ilə bağlı yazılı göstərişlərin məzmunu, habelə təhlükənin aradan qaldırılması tədbirləri, onların həyata keçirilməsi Qaydası və müddəti"nin 2 nömrəli əlavəsinə əsasən "Müdaxiləyə məruz qalmış abidənin texniki vəziyyəti haqqında akt"la rəsmiləşdirilən müdaxilə faktını müəyyən etdim:

______________________________________________________________________________
(müdaxilə faktı)

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu və 12-ci maddələrinə, həmçinin "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikası Qanununun 5.3-cü maddəsinə əsasən **qərara alıram:**

Aşağıda qeyd olunan abidənin mülkiyyətçisi, icarəçisi, istifadəçisi, yerinə yetirilən işlərin sifarişçisi və ya podratçısı olan vəzifəli şəxs, hüquqi və ya fiziki şəxs tərəfindən yerinə yetirilən işlər müvəqqəti olaraq məhdudlaşdırılsın, yaxud dayandırılsın (müvafiq qərarın altından xətt çəkilsin):

1. Abidənin:

adı ______________________________________________________________________

inventar nömrəsi ___________________________________________________________

tarixi______________________________________________________________________

ünvanı____________________________________________________________________

2. Abidənin mülkiyyətçisi, icarəçisi, istifadəçisi, yerinə yetirilən işlərin sifarişçisi və ya podratçısı______________________________________________________________

______________________________________ ________________
(soyadı, adı, atasının adı, ünvanı) (imza)

3._____________________________________________________________________
(yerinə yetirilməli tədbirlər, müəyyən edilmiş müddət)

Dövlət Qoruğu İdarəsinin məsul şəxsi __________________________ ________________
(soyadı, adı, atasının adı, vəzifəsi) (imza)

**M.Y.**

**Qeydlər:**

1. Bu Göstərişin surəti imzalandığı tarixin növbəti iş günündən gec olmayaraq, barəsində Göstəriş verilən şəxsə və ya onun səlahiyyətli nümayəndəsinə verilir.
2. Bu Göstərişin surəti rəsmi qaydada verildiyi vaxtdan 30 (otuz) gün müddətində həmin Göstərişdən "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq inzibati qaydada və (və ya) məhkəməyə şikayət verilə bilər.

“Şuşa şəhərinin ərazisində yerləşən abidələrə təhlükə yaradan işlərin məhdudlaşdırılması və ya dayandırılması ilə bağlı yazılı göstərişlərin məzmunu, habelə təhlükənin aradan qaldırılması tədbirləri, onların həyata keçirilməsi Qaydası və müddəti”nə

**2 nömrəli əlavə**

**Müdaxiləyə məruz qalmış abidənin texniki vəziyyəti haqqında**

**AKT _____**

**Şuşa şəhəri** **“_____” __________ 20__ il**

Biz, aşağıda imza edənlər ____________________________________________tərəfindən
(soyadı, adı, atasının adı, vəzifəsi)

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarı ilə _________________tarix və memarlıq abidəsi kimi (inventar -si _____)
_______________________________________________________________________________
(abidənin əhəmiyyət dərəcəsi)
dövlət qeydiyyatına alınmış _______________________________________________________
(abidənin yerləşdiyi ünvan)

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 26 may tarixli 204 nömrəli Qərarı ilə təsdiq edilmiş “Mədəni sərvətlərə mühafizə dərəcəsinin tətbiqi Qaydası”nın 8-ci hissəsinə uyğun olaraq mühafizənin qabaqlayıcı dərəcəsi tətbiq olunmuş ______________________________________________________________ ünvanında yerləşən
(abidənin yerləşdiyi ünvan)
yeni aşkar edilmiş abidəyə baxış keçirilən zaman aşağıdakı faktları aşkar etdik:

1. ____________________________________________________________________________
2. ____________________________________________________________________________
3. ____________________________________________________________________________
4. ____________________________________________________________________________

(abidəyə edilmiş müdaxilə faktlarının təsviri)

Bu akt 3 (üç) nüsxədə tərtib olunub və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsində saxlanılır.

Akta _____ (_______) ədəd fotoşəkil əlavə olunur.
Aktın düzgünlüyünü imzamızla təsdiq edirik:
İmza ___________________________________
(soyadı, adı, atasının adı, vəzifəsi)
İmza ___________________________________
(soyadı, adı, atasının adı, vəzifəsi)
İmza ___________________________________
(soyadı, adı, atasının adı, vəzifəsi)